

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 177 (21.838)

*20 sentyabr 2017-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Sentyabrın 19-da Nyu-Yorkda, Birləşmiş Millətlər Təşkilatının baş qərargahında ümumi müzakirələrin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva tədbirdə iştirak ediblər.

Ümumi müzakirələrin açılışında çıxış edən BMT-nin Baş katibi Antonio Qutterreş hazırda dünyada bir çox problemlərin olduğunu vurğulayıb, ölkələr arasında etibar və etimadın aşağı düşdüyünü bildirib. BMT-nin Baş katibi əminliyini ifadə edib ki, yalnız birlikdə sülhə nail olmaq və qarşılıqlı etimadı bərpa etmək mümkündür.

BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının prezidenti Miroslav Layçak dünyada davam edən münaqişələrin ən çox sadə insanlara ziyan vurduğunu deyib.

Sonra Braziliya Federativ Respublikasının Prezidenti Mişel Temer müzakirə olunan mövzularla bağlı fikirlərini bölüşüb.

Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp BMT-nin fəaliyyətinin daha da səmərəli olmasının vacibliyinə toxunub. ABŞ Prezidenti deyib ki, biz birlikdə çalışmalıyıq və təhdidlərə qarşı bir olmalıyıq.




## 2017-ci ilin yanvar-avqust aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı



Muxtar respublikada 2017-ci ilin yanvar-avqust aylarında 1 milyard 705 milyon 749 min 400 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 5,4 faiz artaraq 3788 manata çatmışdır.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 708 milyon 256 min manat dəyərində məhsul istehsal edilmişdir. Bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 1,4 faiz üstələmişdir.

* * *

İnfrastruktur quruculuğu çərçivəsində 2017-ci ilin yanvar-avqust aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 635 milyon 580 min manat dəyərində investisiya yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,2 faiz çoxdur. Əsas kapitala yönəldilmiş investisiyanın 594 milyon 228 min manatı və ya 93,5 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2017-ci ilin yanvar-avqust aylarında 279 milyon 334 min 800 manat dəyərində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 3,6 faiz üstələmişdir. Bu dövr ərzində muxtar respublika üzrə diri çəkidə 13192,5 ton ət, 66050,6 ton süd istehsal edilmiş, bir il öncəki göstərici ilə müqayisədə ət istehsalı 3,2 faiz, süd istehsalı 7,3 faiz artmışdır.

* * *

2017-ci ilin yanvar-avqust aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 33 milyon 531 min 100 manat olmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 1,6 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 27 milyon 704 min manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,6 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmaqdadır. 2017-ci ilin yanvar-avqust aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 21 milyon 52 min 500 manat məbləğində kreditlər verilmişdir. Verilmiş kreditlərin 3 milyon 82 min 400 manatı və yaxud 14,6 faizi qısamüddətli, 17 milyon 970 min 100 manatı və yaxud 85,4 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 sentyabr 2017-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 62096-ya çatmışdır ki, bunun da 53296-sı və ya 85,8 faizi aktiv hesablardır. 2017-ci ilin yanvar-avqust aylarında açılmış 20 min bank hesabının 19 min 931-i aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 sentyabr 2017-ci il tarixə 1254-ə çatmışdır.

* * *

2017-ci ilin yanvar-avqust aylarında muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 5 milyon 130 min 200 manat olmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 28 faiz çoxdur.

* * *

2017-ci ilin yanvar-avqust aylarında muxtar respublikaya 243 min 22 nəfər turist gəlmişdir ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 3,7 faiz və ya 8659 nəfər çoxdur.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2017-ci ilin yanvar-avqust aylarında muxtar respublikada 304 milyon 838 min 500 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri son bir il ərzində 1,2 faiz artaraq 284 milyon 341 min 600 ABŞ dolları, idxalın dəyəri 27,1 faiz azalaraq 20 milyon 496 min 900 ABŞ dolları təşkil etmiş, nəticədə, 263 milyon 844 min 700 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

* * *

Əhali gəlirlərinin artımı davam edir. 2017-ci ilin yanvar-avqust aylarında muxtar respublikada əhalinin gəlirləri 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz artaraq 1 milyard 189 milyon 760 min 200 manat, onun hər bir nəfərə düşən məbləği isə 0,2 faiz artaraq 2642,2 manat təşkil etmişdir.

* * *

2017-ci ilin yanvar-iyul aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 414,3 manat təşkil etmiş və bu göstərici 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz artmışdır.

* * *

1 avqust 2017-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 4028 nəfər və ya 0,9 faiz artaraq 451 min 132 nəfər təşkil etmişdir.

*Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti*

## Əhalinin sosial müdafiəsi diqqət mərkəzindədir

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ötən ay aktiv məşğulluq tədbirlərini davam etdirmiş, 232 nəfər məşğulluq xidməti orqanlarında qeydiyyatda olan vakant iş yerlərinə, 25 nəfər müvafiq peşə kurslarına göndərilmiş, 2 nəfər isə kəndlərdə xidmət mərkəzlərində müvafiq işlə təmin olunmuşdur.***

Naxçıvan Regional Peşə Tədris Mərkəzində əmək bazarının tələbləri nəzərə alınaraq müxtəlif peşə sahələri üzrə kurslar təşkil olunmuşdur. Ay ərzində bərbər-manikürçü peşəsi üzrə kursu 12, qaz təsərrüfatı avadanlıqlarının istismarı və təmiri üzrə nəzarətçi-çilingər peşəsi üzrə ixtisasartırma kursunu isə 7 nəfər bitirmişdir. Hazırda bərbər, elektrik montyoru, aşpaz köməkçisi və Penitensiar Xidmətin Cəzaçəkmə Müəssisəsində ağac üzərində oyma peşələri üzrə kurslar davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən avqustun 18-də Şərur, Babək, Ordubad, Culfa və Şahbuz rayonlarından olan və uzun müddət ünvanlı dövlət sosial yardımı alan 8 aztəminatlı ailənin hər birinə fərdi təsərrüfatlarını qurmaq üçün bir ədəd yanında balası olan inək verilmişdir.

Qeyri-formal məşğulluğun qarşısının alınması, işə götürülən şəxslərlə əmək müqaviləsinin bağlanması, onlara verilən əməkhaqlarının reallığı əks etdirməsi ilə bağlı 11 obyektdə, işəgötürənlər tərəfindən işçilər üçün müvafiq əmək şəraitinin yaradılması, istehsal müəssisələrində işçilərin əməyin mühafizəsi qaydalarına riayət edilməsi ilə əlaqədar isə 45 obyektdə nəzarət tədbirləri görülüb.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə və təhsilə inteqrasiyası diqqət mərkəzində saxlanılır. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində bu kateqoriyadan olan uşaqların müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərinin artırılması üzrə məşğələlərin təşkili, müxtəlif sosial xidmətlərin göstərilməsi davam etdirilmişdir. Reabilitasiya təlimlərinə 119 uşaq cəlb olunmuşdur.

Avqust ayında tənha yaşayan və başqasının yardımına ehtiyacı olan 235 ahıl və fiziki imkanları məhdud şəxslərə evlərində, həmçinin 10 nəfərə Ahıllar Evində stasionar sosial xidmət göstərilib, Əlillərin Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 11 şəxsin, Uşaq Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 8 uşağın müalicəsi təşkil edilib, 33 nəfərə isə sanatoriya və pansionatlara göndəriş verilib. Ay ərzində 18 nəfər texniki reabilitasiya vasitələ təmin olunub, 11 nəfərə protez-ortopedik xidmət göstərilib, 6 nəfərin sosial məişət şəraitinin yaxşılaşmasına, 5 nəfərin respublika daxilində müalicəsinə maddi köməklik göstərilib.

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti*

***Müstəqillik qazandığımız illər Ordubad rayonunun da hüsnünə yeni çalarlar gətirib. Bu dövrdə bölgənin ən ucqar dağ və sərhəd kəndləri belə, müasir yaşayış məntəqələrinə çevrilib. Həmin kəndlərdə təhsil, səhiyyə, mədəniyyət, rabitə və digər sahələr üçün yeni binalar inşa olunub, yol infrastrukturu yenilənib. Üstüpü kəndi də rayonun ucqar dağ yaşayış məntəqəsidir. Bir neçə aydır ki, bu kənddə də kompleks quruculuq işlərinə start verilib.***

## Dağ kəndində kompleks quruculuq tədbirləri həyata keçirilir

Yaxın vaxtlarda bu yaşayış məntəqəsində yeni məktəb, kənd və xidmət mərkəzlərinin binaları istifadəyə veriləcək. Kənd tam orta məktəbinin binası 1 korpusu zirzəmi ilə birlikdə 4, 2 korpusu isə 3 mərtəbədən ibarətdir. Tədris müəssisəsinin yeni binasında müəllim və şagirdlərin ixtiyarına işıqlı sinif otaqları, kimya, biologiya və fizika laboratoriyaları, elektron lövhəli sinif, kompüter otağı, hərbi və şahmat kabinələri, idman zalı və bufet veriləcəkdir. Binada əsas tikinti işləri, demək olar ki, başa çatıb. Hazırda binanın daxilində və fasad hissəsində suvaq işləri aparılır.

Dövlət qurumlarının fəaliyyət göstərəcəyi kənd mərkəzi üçmərtəbəlidir. Kənd mərkəzinin binasında da əsas tikinti işləri başa çatdırılıb, kommunikasiya xətləri çəkilib, qapı və pəncərələr salınıb. Kənd mərkəzinin birinci mərtəbəsi həkim ambulatoriyası üçün nəzərdə tutulub. Digər mərtəbələrdə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin, bələdiyyənin, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının, kitabxananın, klubun, poçtun, ATS, səhiyyə, baytarlıq və polis məntəqələrinin fəaliyyətinə hərtərəfli şərait yaradılacaq. Üstüpü kənd sakinlərinə daha bir ərməğan olan birmərtəbəli xidmət mərkəzində sənaye və təsərrüfat malları mağazaları, bir neçə xidmət sahəsi yerləşəcək. Bu quruculuq tədbirlərini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsinin inşaatçıları həyata keçirirlər.

Obyektlərin hamısında yerli tikinti materialından istifadəyə üstünlük verilir, keyfiyyət amili diqqət mərkəzində saxlanılır.

*Xəbərlər şöbəsi*

# Neft strategiyası Azərbaycanı yeni inkişaf mərhələsinə yüksəldib

***Azərbaycan dünyanın zəngin təbii sərvətlərinə malik olan ölkələrindən biridir. Ancaq etiraf etməliyik ki, xalqımız bu sərvətdən yalnız XX əsrin sonralarında – müstəqillik qazandıqdan sonra tam bəhrələnmək imkanı əldə edib. Bu imkanı reallığa çevirən isə ulu öndər Heydər Əliyev dühasının məhsulu olan yeni neft strategiyamız və həmin strategiyanın reallaşdırılması üçün hazırlanmış neft diplomatiyasıdır. Neft strategiyası ölkəmizin təbii sərvətlərindən xalqımızın bəhrələnməsinə xidmət etdisə, neft diplomatiyası Xəzərin Azərbaycan sektorundakı karbohidrogen ehtiyatlarının birgə işlənilməsi üçün dünyanın Qafqazda marağı olan bütün mərkəzlərinin iqtisadi mənafelərinin ödənilməsinə şərait yaratdı. Bu isə Azərbaycan Respublikasının beynəlxalq aləmdəki tərəfdaşlarının, dostlarının sayının daha da artması demək idi.***

1993-cü ildə ulu öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı respublikamızın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin başlanğıcını qoymaqla yanaşı, neft müqaviləsi üzrə müzakirələrə, danışıqlara faktiki olaraq yenidən başlanmasını reallaşdırdı və nəhayət, çətin danışıqlar prosesindən sonra Azərbaycanın maraqlarına tamamilə cavab verən müqavilə şərtləri əldə edildi. Dahi şəxsiyyətin işləyib hazırladığı yeni neft strategiyasının reallaşdırılmasında Onun ən böyük silahdaşı məhz o zamanlar Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti olan cənab İlham Əliyev idi. Həmin dövrdə Vaşinqton, Nyu-York, Hyuston, Dallas, İstanbul və digər şəhərlərdə iri neft şirkətlərinin rəhbərləri ilə səmərəli görüşlər keçirən və danışıqlar aparan cənab İlham Əliyev xalqımızın milli maraqlarını tam təmin edən müqavilə şərtlərinin əldə olunması üçün gərgin əmək sərf etmişdir.

Seçilən düzgün yol, aparılan gərgin iş öz bəhrəsini verdi. 1994-cü ilin 20 sentyabrında Bakı şəhərinin "Gülüstan" sarayında XX əsrin ən böyük iqtisadi layihələrindən olan, tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adı ilə bütün dünyada məşhurlaşan saziş imzalandı. Bakıda dünyanın 8 ölkəsini təmsil edən yüksək nüfuza malik, neft hasilatı üzrə ixtisaslaşmış 13 iri neft şirkəti arasında "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənilməsini nəzərdə tutan bu irimiqyaslı beynəlxalq müqavilə müasir Azərbaycanın tarixində və taleyində mühüm rol oynayıb. "Əsrin müqaviləsi" ilə Azərbaycan özünün təbii sərvətlərinə sahib çıxmaq haqqını bütün dünyaya bəyan etdi, milli mənafelərimizi, iqtisadi və strateji maraqlarımızı qorumaq əzmini göstərdi.

Tarixi neft sazişi 1994-cü ilin dekabrında Azərbaycan Respublikasının Milli Məclisində ratifikasiya olunaraq qüvvəyə minmişdir. Bununla da, yeni neft strategiyası və doktrinasının uğurla həyata keçirilməsinə start verilmişdir. Dərin bir inam və uzaqgörənliklə işlənib hazırlanan bu böyük layihə özünü tamamilə doğrultmuş, təkcə iqtisadi nəticələrinə görə deyil, həm siyasi, həm də sosial rifah mülahizələri baxımından əsl təməl rolunu oynamışdır. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi: ***"Əsrin müqaviləsi" məhz Azərbaycanın dövlət müstəqilliyinin əldə olunmasından irəli gəlmiş tarixi hadisədir. Biz sübut etdik ki, Azərbaycan etibarlı tərəfdaşdır. Biz sübut etdik ki, Azərbaycana xarici sərmayənin gəlməsi və istifadə olunması üçün burada bütün imkanlar yaradılıbdır. Biz sübut etdik ki, Azərbaycana gələn hər bir iş adamı, şirkət, vətəndaş burada azad, sərbəst, rahat işləyə və yaşaya bilər. Biz bu müqaviləni imzaladıq və sübut etdik ki, Azərbaycan xalqının milli mənafeləri üçün çalışırıq və ona görə də bu cür nailiyyətləri əldə etməyə qadirik".***



Bu müqavilə sonralar dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 30-dək sazişin imzalanmasına yol açaraq, ilk növbədə, Azərbaycan dövlətinin inkişafında və xalqımızın rifahının yüksəlməsində mühüm rol oynadı. "Əsrin müqaviləsi" Azərbaycanın bir dövlət kimi siyasi və iqtisadi təhlükəsizliyinin təmin olunmasına, dünya iqtisadi sisteminə qoşulmasına və beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsinə əlverişli şərait yaratdı.

Uğurlu enerji strategiyasının həyata keçirilməsi nəticəsində bu gün ölkəmizin bütün şəhər, qəsəbə və kəndlərində inkişaf təmin edilib, yaşayış məntəqələri abadlaşıb. Ötən illər ərzində 3 mindən çox məktəb, 600-dən çox xəstəxana binaları, 50-dən çox olimpiya mərkəzi tikilib istifadəyə verilib. 11 min kilometrdən çox yol çəkilib, enerji infrastrukturumuz möhkəmlənib, iqtisadiyyatımız şaxələnib. Bütün bunlara neftdən əldə edilən gəlirlərdən səmərəli istifadə olunması nəticəsində nail olunub. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Azərbaycan bundan sonra ancaq uğurla inkişaf edəcək, ölkəmizin böyük potensialı var. Son illər ərzində biz bu potensialı gücləndirmişik və bu potensialın inkişafında "Əsrin kontraktı"nın xüsusi rolu vardır. İndi təsəvvür etmək çətindir ki, əgər 1994-cü ildə "Əsrin kontraktı" imzalanmasaydı, biz hansı vəziyyətlə üzləşə bilərdik. Biz bu gün müstəqil siyasət aparan ölkələrdənik. Bunun təməlində bizim güclü siyasi iradəmiz və iqtisadi müstəqilliyimiz dayanır. Biz heç kimdən asılı deyilik, öz taleyimiz öz əlimizdədir və müstəqil siyasət aparmaq imkanlarımız, ilk növbədə, iqtisadi imkanlarımızdan qaynaqlanır. Bu imkanları da bizə "Əsrin kontraktı" yaratdı".***

Hər hansı bir ölkədə istehsal olunan neft, təbii qaz o zaman xalqa və dövlətə səmərə verər ki, bu sərvət dünya bazarına çıxarıla bilsin. Ona görə də ulu öndər Heydər Əliyevin neft strategiyasının əsas istiqamətlərindən biri də Azərbaycan neftinin dünya bazarına nəqli yollarının dəqiq müəyyənləşdirilməsi idi. Xalqımızın və dövlətimizin mənafelərinin uzunmüddətli şəkildə qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədilə Bakı-Tbilisi-Ceyhan ixrac neft boru kəməri layihəsi əsas götürüldü və geridə qalan illər sübut etdi ki, bu variant həqiqətən Azərbaycanın maraqlarını tam təmin edir.

Ümummilli liderimizin qətiyyəti sayəsində çox böyük maneələrə baxmayaraq, 2002-ci il sentyabrın 18-də Bakıda Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin, ABŞ-ın energetika nazirinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin təməli qoyuldu. Təxminən, üç il sonra, 2005-ci ilin mayında kəmərin Azərbaycan ərazisindən keçən hissəsinin istifadəyə verilməsi mərasimi keçirilib və boru xəttinə ilk neft vurulub. Həmin ilin oktyabrında isə kəmərin Gürcüstan hissəsi istifadəyə verilib. 2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatıb və iyulun 4-də neftlə yüklənmiş ilk tanker buradan yola salınıb.

"Üç dəniz əfsanəsi" adlandırılan və strateji əhəmiyyəti ilə seçilən layihənin əfsanədən gerçəkliyə çevrilməsi ötən qısa zaman kəsiyində Azərbaycana çox böyük siyasi və iqtisadi qazanclar gətirib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Hər bir dövlətin müstəqilliyinin dayanıqlı olması onun iqtisadi potensialından da asılıdır. Azərbaycanın tam müstəqil dövlət olması üçün onun iqtisadi inkişafının da əsaslarını hazırlayan ulu öndərimiz qısa müddətdə islahatların aparılmasına nail olmuş, davamlı inkişaf üçün böyük maliyyə imkanları yaradan neft strategiyasını işləyib hazırlamış, Azərbaycan regionda həyata keçirilən qlobal layihələrin təşəbbüsçüsü və fəal iştirakçısı rolunu oynamağa başlamışdır. O zaman nəhəng neft-qaz layihələrinin əfsanədən reallığa çevrilməsi müstəqil Azərbaycanın gələcəyi, Azərbaycan xalqının xoşbəxtliyi uğrunda atılmış addım kimi tarixə düşmüşdür".***

Bu gün böyük enerji ixracatçısına çevrilmiş Azərbaycanda hasil olunan karbohidrogen ehtiyatları neft-qaz boru kəmərləri, terminallar və dəmir yolu vasitəsilə Avropa və dünya bazarlarına çatdırılır. Dünyada gedən iqtisadi proseslərin, nəhəng enerji layihələrinin fəal iştirakçısına və mərkəzinə çevrilmiş Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası ilbəil daha da sürətlənir, ölkəmiz dünyanın enerji təhlükəsizliyinə mühüm töhfələr verir.

Respublikamızın geosiyasi mövqeyi ilə bağlı tranzit imkanlarının genişləndirilməsi, beynəlxalq neft-qaz kəmərlərinin yeni şəbəkəsinin formalaşmasında fəal iştirakının təmin edilməsi iqtisadiyyatımızın gələcək inkişafı üçün çox mühüm əhəmiyyətə malikdir. Son illərdə öz geosiyasi və iqtisadi əhəmiyyəti ilə seçilən TANAP, TAP kimi iri transmilli layihələrin reallaşdırılmasında Azərbaycanın söz sahibinə çevrilməsi və əhəmiyyətli paya malik olması, "XXI əsrin layihəsi" hesab edilən "Şahdəniz-2" layihəsinin reallaşdırılması da əsası "Əsrin müqaviləsi" ilə qoyulan böyük neft strategiyasının məntiqi davamıdır. Bu layihələr bir tərəfdən Azərbaycanın vacib iqtisadi və enerji tərəfdaşı kimi dünyada mövqelərini möhkəmləndirirsə, digər tərəfdən gələcəkdə qaz ixracı hesabına da böyük gəlirlər əldə edəcəyinə təminat verir.

Bu il sentyabrın 14-də ölkəmizin həyatında daha bir əlamətdar və tarixi gün yaşanıb. Bakı şəhərindəki Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında sazişin imzalanması mərasimi keçirilib. Hasilatın pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən işlənmiş sazişə əsasən növbəti 32 il müddətində "Azəri-Çıraq-Günəşli" yataqlarına 40 milyard dollardan artıq sərmayə qoyulacaqdır. Bu sazişin ardınca SOCAR və tərəfdaşları arasında "Azəri-Çıraq-Günəşli" müqavilə ərazisi üçün əlavə bir hasilat platformasının qiymətləndirilməsi məqsədilə mühəndis-layihə işlərinin aparılması haqqında razılaşma əldə olunub.

"Əsrin müqaviləsi" Azərbaycana indiyədək olduğu kimi, neftdən gələn gəlirləri qeyri-neft sektoruna yönəltmək imkanı verəcək. Bununla da, respublikamız bir çox neft hasil edən ölkələrdən fərqli olaraq nefti insan kapitalına çevirə bilən dövlət imicini qoruyub saxlayacaq. Çünki ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Neft hasilatı hələ o demək deyil ki, ölkələr çiçəklənəcək, orada inkişaf olacaq. Neftlə zəngin olan bir çox ölkələrdə bu gün müşahidə edilən mənzərə bunun əksini deyir. Ona görə, bizim əsas vəzifəmiz ondan ibarət idi ki, neft gəlirlərini insan kapitalına çevirək və hər bir Azərbaycan vətəndaşı bu müsbət dəyişikliyi görsün".***

*"Əsrin müqaviləsi" təkcə iqtisadi sahədə deyil, siyasi-diplomatik sahədə də ölkəmizə çox böyük səmərə verib. Azərbaycan BMT Təhlükəsizlik Şurasına, Avropa Şurasının Nazirlər Komitəsinə və bir sıra mötəbər beynəlxalq təşkilatlara sədrlik edib. Bu gün Azərbaycan "Böyük iyirmilər"in sammitinə dəvət edilir. Azərbaycan kosmik ölkələr ailəsinin üzvüdür. Bakı və Naxçıvan dünyanın mütərəqqi təşkilatlarının tədbirlərinə ev sahibliyi edir. Respublikamızın həm siyasi, həm də iqtisadi reytinqi gündən-günə artır. Bütün bunların hamısı ölkədə aparılan hərtərəfli islahatların, ən başlıcası isə ulu öndər Heydər Əliyevin neft strategiyasının bizə verdiyi bəhrələrdir.*

**Rauf KƏNGƏRLİ**

# Müasir meliorasiya və irriqasiya sistemləri məhsuldarlıq üçün zəmin yaradır

***Muxtar respublikamızda aqrar sahənin inkişaf etdirilməsində suvarma şəbəkələrinin genişləndirilməsi, torpaqların təsərrüfat suyuna olan tələbatının ödənilməsi üçün həyata keçirilən məqsədyönlü tədbirlər mühüm əhəmiyyət kəsb edir. Son illər Şərur rayonunda da bu istiqamətdə xeyli iş görülüb.***

Rayon Suvarma Sistemləri İdarəsinin rəisi Vaqif Həsənovla söhbət zamanı bildirdi ki, rayonda 150 milyon kubmetr su tutumuna malik Arpaçay Su Anbarı ulu öndərimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə tikilib. Mövsüm ərzində Şərurla yanaşı, Kəngərli və Sədərək rayonlarının əkin sahələrinin də bir qismi həmin anbardan qidalanan sağ və sol sahil kanalları, bəzi yaşayış məntəqələri isə Araz çayından nasoslar vasitəsilə su ilə təmin olunur.

Hazırda Arpaçay dəryaçasında 53,1 milyon kubmetr su vardır. Gölə bir saniyə ərzində 0,6 kubmetr su daxil olur, suvarma məqsədilə sağ və sol sahil kanallarına, çay yatağına saniyədə 14 kubmetr su buraxılır. İtkiyə yol verilməməsi, mövcud ehtiyatdan bütün mövsüm ərzində səmərəli istifadə olunması üçün su kanallara və çay yatağına qrafik üzrə ötürülür və bu qrafikə ciddi nəzarət edilir.

Şərur rayonunda ötən ilin payızlıq taxıl əkinləri də daxil olmaqla, bu yaz mövsümündə 27 min hektara yaxın sahədə normal suvarma həyata keçirilib. Meliorasiya və suvarma qurğularının texniki normalara uyğun səviyyədə istismarı ilə yanaşı, bəzi yerlərdə təmir işləri də ardıcıl davam etdirilir. İdarənin balansında olan nasos stansiyalarının, subartezian quyularının fasiləsiz işinin təmin olunması, dayanan quyuların təcili təmir edilib işə salınması üçün də vaxtaşırı əsaslı tədbirlər həyata keçirilir. Bu tədbirlər əlavə sahələrin əkin dövriyyəsinə daxil edilməsi ilə yanaşı, həm də torpaqların şoranlaşmasının qarşısını alır. Keçən aylarda kollektivin gücü ilə 1 milyon 430 min kubmetr həcmində torpaq işləri görülüb, kollektor-drenaj şəbəkələri, kanal və arxlar lildən təmizlənib, Xanlıqlar, Vərməziyar və Ələkli kəndlərində 589 hektar sahənin su təminatını yaxşılaşdırmağa imkan verən suvarma boru xəttinin tikintisi başa çatdırılıb. Həmçinin rayondakı 17 min hektardan artıq əkin sahəsinə suvarma suyunun vaxtlı-vaxtında verilməsi üçün lazımi tədbirlər görülüb, su itkisi halları minimuma endirilib. 7 min 637 hektar taxıl, 760 hektar kartof, 1578 hektar tərəvəz, 474 hektar bostan bitkiləri əkinləri 5 dəfə suvarılıb.

Əhalinin içməli su ilə təchizatı da, əsasən, rayon Suvarma Sistemləri İdarəsinin üzərinə düşür. Aralıq kəndində hərəsi 4 min kubmetr su tutan 2 anbar fəaliyyət göstərir. Bu anbarlar rayonun 16 kəndini, Kəngərli rayonunun Qıvraq qəsəbəsinin, Qabıllı və Xok kəndlərinin əhalisini içməli su ilə təmin edir. Hazırda 470 subartezian quyusundan 438-i işlək vəziyyətdədir. Bunlardan ikisi ötən il qazılıb istifadəyə verilib, 42 artezian quyusuna yeni nasos qoyulub, 329-u əsaslı təmir olunub.



Qarşıdan 2017-ci ilin payız suvarma mövsümü gəlir. Şərur kəndlisi 2017-ci ilin yazında etibarlı bünövrə qoyduğu bol məhsulunun yığımını başa çatdırır, payız mövsümünə hazırlaşır. Rayon Suvarma Sistemləri İdarəsi həmin dövrdə sahələrin vaxtında suvarılması üçün indidən işlərini tədbirli görür. Bu da o deməkdir ki, payız aylarında da əkin sahələrini suvarma suyu ilə tam təmin etmək mümkün olacaqdır. Yerlərdə sudan səmərəli istifadə olunması, arxlarda və kanallarda sızmaların qarşısının alınması daim nəzarətdədir. Bütün bunlar onu göstərir ki, əkin sahələrində yüksək məhsul istehsal etməkdən ötrü melioratorlar yenə də kənd əməkçilərinin yaxın köməkçisi olacaqlar.

**Ramiyyə ƏKBƏROVA**

## Təhsil millətin gələcəyidir

# Gələcəyin ziyalı xanımlarını yetişdirən məktəb

***Ali məktəblərə builki qəbul imtahanlarında ən yüksək nəticə qazanan təhsil ocaqlarımızdan biri də Naxçıvan şəhərində fəaliyyət göstərən Qızlar Liseyidir. Bu məktəbdə dəfələrlə olmuşam. Yaradılan şəraiti, pedaqoji kollektivin tələbkarlığını görmüşəm. Ən əsası isə gələcəyin anaları olacaq qızlarımızın təkcə savadlı məzun kimi yox, həm də əsl Azərbaycan qadını kimi tərbiyə olunmaları burada necə böyük bir vəzifənin öhdəsindən gəlindiyinin göstəricisidir. Məktəbin direktoru Aidə Allahverdiyeva ilə söhbətə bu prizmadan başladıq.***



–Sirr deyil ki, qadın ana olaraq körpələrimizin ilk müəllimi, ən böyük tərbiyəçisidir. Ona görə də bu gün orta məktəb partası arxasında oturaraq elmin ilkin sirlərinə yiyələnən qızlarımızın cəmiyyətə savadlı bir fərd kimi daxil olması vacib məsələlərdən biridir. Bu baxımdan maarifçi-ziyalılarımız Azərbaycan qızlarının mükəmməl təhsil almasına çalışıblar. Fəal və mübariz Azərbaycan qadını öz fəaliyyətində xalqımızın milli-mədəni ənənələrinin qorunub saxlanılmasına və zənginləşməsinə çalışıb. Onların qəhrəmanlıq xatirələri tariximizin şərəfli səhifələrindəndir. Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi zərurəti yüksək əxlaqi, mənəvi keyfiyyətləri, vətənpərvərliyi və Vətənə hədsiz sədaqəti ilə seçilən gənclərin yetişdirilməsini diktə edir. Məhz bu cür gəncliyin formalaşması ən əvvəl ailənin, xüsusilə ananın üzərinə düşən əsas vəzifələrdəndir. Bu gün böyütdüyümüz qızlar ulu nənələrimizin, tariximizin səhifələrində ad qoymuş qadınlarımızın mənəvi varisləri kimi formalaşdırılmalıdırlar. Pedaqoji kollektivimizə belə bir şərəfli işin öhdəsindən layiqincə gəlmək üçün hərtərəfli şərait yaradılıb.







Belə ki, 2012-ci ilin fevral ayının 9-da yenidən qurulan lisey binasına əlavə olaraq bir mərtəbə də artırılıb, sinif otaqları genişləndirilib, fənn kabinələrində müasir şərait yaradılıb. Hazırda zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binada 32 sinif otağı, fənn kabinələri, elektron lövhəli siniflər, kompüter otaqları, müəllimlər otağı və idman zalı vardır. Liseydə təhsil alan 360 şagirdin təlim-tərbiyəsi ilə 57 müəllim və tərbiyəçi məşğul olur.

Muxtar respublika məktəblərində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi tədrisin məzmunca yeniləşməsinə səbəb olub. Naxçıvan Qızlar Liseyinə 49 kompüter verilib, onlardan 1-i kitabxanada, 48-i isə 3 kompüter sinfində quraşdırılıb və internetə çıxışları təmin edilib. Yenidənqurma işləri çərçivəsində liseydə 4 elektron lövhəli sinif yaradılıb. Məktəbin zəngin kitabxanası şagirdlərin biliklərinin, intellektual səviyyələrinin yüksəldilməsinə geniş imkanlar açıb.

Kimya, biologiya və fizika kabinələri tədris avadanlıqları ilə zəngindir. Bu kabinələrdə müvafiq fənlər üzrə dərslərin tədrisi yüksək səviyyədə aparılır. İlk tibbi yardım kabinəsi də lazımi avadanlıqlar və məlumat stendləri ilə təchiz olunub, şagirdlərə ilkin tibbi yardımın öyrədilməsi üçün hər cür şərait yaradılıb. Liseydə musiqi dərsləri də yüksək səviyyədə tədris olunur. Burada ayrıca musiqi otağı yaradılıb, məktəbə pianino verilib. Məktəbin xalçaçılıq, tikiş-toxuculuq və kulinariya dərnəklərində gələcəyin xanımlarına bu peşələrin sirləri öyrədilir. Burada görüşdüyümüz valideyn Sevinc Məmmədova bildirdi ki, iki övladı bu məktəbdə təhsil alır. Təhsillə yanaşı, onlara qadın üçün vacib olan peşələr üzrə ilkin vərdişlərin öyrədilməsi bütün anaların ürəyincədir. Onun sözlərini Güllübəyim Seyidova da təsdiq edərək öz minnətdarlığını bildirdi.

Liseyin builki uğurları barədə müəllimlərlə söhbətimizdə öyrəndik ki, ötən dərs ilində məktəbi 36 məzun bitirib. Məzunlardan 1 nəfəri “Qızıl” medala, 6 nəfəri fərqlənmə attestatına layiq görülüb. Onların hamısı göstərilən etimadı doğruldublar. Belə ki, həmin məzunlar 2017-2018-ci tədris ilində təhsillərini ali məktəblərdə davam etdirirlər. Tələbə adını qazananların 13-ü 500-700 intervalında bal toplayıb. Günnar Fərəcova muxtar respublika üzrə ən yüksək nəticəyə sahib olub. O, 691 bal toplayıb. Ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrə ölkə başçısının sərəncamı ilə Prezident təqaüdü təyin olunub. Günnar da həmin təqaüdə layiq görülüb. O, hazırda Naxçıvan Dövlət Universitetində hüquq ixtisası üzrə birinci kursda təhsil alır. Günnarla görüşmək imkanı əldə edə bildik. Ondan ali məktəbə yüksək balla qəbul olunmasında hansı amillərin başlıca rol oynadığını soruşduqda dedi:

– Doğma Naxçıvanımız gözlərimiz önündə günbəgün çiçəklənir, bütün sahələrin inkişafına böyük diqqət yetirilir. Təhsil sahəsi də bu qayğıdan yetərincə bəhrələnib. Hər il muxtar respublikada yeni məktəb binaları tikilir, tədris ocaqlarının maddi-texniki bazası gücləndirilir. Bu da hər bir məktəblinin yüksək səviyyədə təhsil almasına imkan verib. Mən və sinif yoldaşlarım yaradılmış bu şəraitdən səmərəli istifadə etdik. Zəhmətimiz də hədər getmədi. Yaradılan şəraitə görə dövlətimizə minnətdarlığımızı bildiririk.

Onu da qeyd edim ki, ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüşü heç vaxt unutmayacağam. Görüşdə Ali Məclisin Sədri demişdir: ***“Yaşadığımız dövr bizdən daha mükəmməl təhsil almağı, elmi biliklərə və peşələrə dərindən yiyələnməyi tələb edir. Gənclik və təhsil məsələlərinə münasibətdə belə bir fikir özünü daha aydın şəkildə büruzə verir ki, güc - bilikdədir. Ölkələrin gücü isə onların malik olduqları təhsilli və vətənpərvər gəncliklə, milli kadr potensialı ilə ölçülür”.***

Məktəbin müəllimləri ilə söhbət zamanı keçən ilin məzunları haqqında xoş sözlər dedilər. Onların qəbul imtahanlarında yüksək bal topladıqlarını məktəbdə yaradılmış şəraitlə əlaqələndirdilər. Azərbaycan dili və ədəbiyyat müəllimi Rəfiqə Abdullayeva səmərəli pedaqoji fəaliyyətinə görə “Tərəqqi” medalı ilə təltif olunub. O deyir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təhsil işçilərinə göstərdiyi qayğı, onlar qarşısında müəyyənləşdirdiyi vəzifələr bir ali məqsədə söykənib: dövlətçiliyimizə, müstəqilliyimizə sadiq olan vətənpərvər gənclər tərbiyə etmək. Biz isə həm də gələcəyimizin anaları olacaq qızların təlim-tərbiyəsi ilə məşğuluq. Bu da üzərimizə böyük vəzifə qoyur. Çünki ölkənin gələcək taleyi məhz belə yetirmələrimizdən, sabahın vətəndaşlarından asılı olacaq. Bu məsul vəzifənin yerinə yetirilməsində müasir tədris üsullarına geniş yer veririk. Bu heç də bütün ənənəvi üsulların üstündən xətt çəkmək deyil. Düzdür, bu gün zamanla səsləşməyən bəzi metodlar var, ancaq kollektiv artıq onların özünü doğrultmadığını görür. Məsələn, sübut olunub ki, “Hafizə məktəbi” bugünkü məktəbliyə heç nə vermir. Zaman dəyişdikcə hər gün müxtəlif yeniliklər həyatımıza daxil olur. Həssas müəllim bunu görür və fəaliyyətini də bu istiqamətdə qurur, nəticəsinin uğurlu olması onu daha da ruhlandırır. Bu isə qarşımıza qoyulan vəzifənin layiqincə yerinə yetirilməsində başlıca amildir.

Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Kifayət Hüseynova:

– Sinifdə neçə şagird varsa, bir o qədər də xarakter var. Onu da unutmuruq ki, biz ancaq qız uşaqları ilə işləyirik. Onlara elmlərin sirləri ilə yanaşı, həm də müəyyən evdarlıq bacarıqları aşılayırıq. Bu da böyük məsuliyyət tələb edir. Əgər əlinə jurnal alıb sinfə girən müəllim bunu dərindən dərk edirsə, o, nailiyyət qazanmaya bilməz. Fərdi yanaşma və sinfin ümumi fəallığının təmin olunması tədrisin səviyyəsinin yüksəldilməsində böyük təsirə malikdir. Çalışırıq ki, fəaliyyətimizdə bunları diqqətdə saxlayaq. Çoxillik təcrübəmdə bu metoddan istifadə etməyin səmərəli olduğunu görmüşəm. Bizimlə birgə çalışan gənc müəllimlərə də bunu tövsiyə edirəm.

“İlin müəllimi” müsabiqəsinin qalibi Rəxşəndə Rüstəmova təhsilin səviyyəsinin yüksəldilməsində müxtəlif metodlarla yanaşı, şagirdlərin mütaliə mədəniyyətinin inkişaf etdirilməsini də vacib sayır. O, bu işdə məktəb kitabxanasının da üzərinə mühüm vəzifə düşdüyünü deyir:

– Bu gün məktəbimizin kitabxanası klassik və müasir Azərbaycan, həmçinin dünya ədəbiyyatı nümunələri ilə zəngindir. Bu xəzinədən istifadə etmək üçün kitab müzakirələrinin keçirilməsi, kitabxanaya gətirilmiş yeni kitabların sərgilərinin təşkil edilməsi diqqətdə saxlayırıq ki, bu da uşaqlara əlavə biliklər verməklə yanaşı, onlarda mütaliə mədəniyyəti formalaşdırır. Bəzən səhv olaraq deyirlər ki, uşaqlarda mütaliəyə marağı gücləndirmək üçün ədəbiyyat fənnindən ayrılmış sinifdənxaric oxu materialları kifayətdir. Əslində, belə deyil. Kitabxanada müxtəlif humanitar və dəqiq elmlərlə bağlı kitablar da var. Onlardan necə istifadə olunması üçün bütün müəllimlər məsuliyyət daşıyır və yaxşı haldır ki, həmkarlarım bu məsələdə öz vəzifə borclarına həssaslıqla yanaşırlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamı ilə oxunması zəruri hesab edilən kitablardan ibarət hazırladığımız guşə şagirdlərimizin ixtiyarına verilib.

Kimya müəllimi Elmira Hüseynli isə deyir ki, gələcəyimizin anaları olacaq bugünkü şagirdlərimizi həyata hazırlamaq məqsədilə onlarla fərdi məşğul olmağa üstünlük veririk. Qızların müxtəlif evdarlıq bacarıqlarına yiyələnmələri üçün səyimizi əsirgəmirik. Onların hazırladığı əl işlərindən ibarət sərgi liseyə gələnlər tərəfindən maraqla qarşılanır. Məktəbimizin builki uğurlarına gəldikdə isə pedaqoji kollektiv bunu son hədd hesab etmir. Artıq yeni dərs ili başlayıb. Şagirdlərimizin səsinə qəribsəmiş sinif otaqlarından yenə də onların səsi gəlir.

Gələcəyin ziyalı xanımlarını yetirən məktəbin pedaqoji kollektivinə şərəfli bir vəzifənin yerinə yetirilməsində uğurlar arzulayırıq.

**Muxtar MƏMMƏDOV**

# “Gəmiqaya” Turizm Şirkəti müştərilərə yüksək və keyfiyyətli xidmətlər təklif edir

***Qədim tarixə və zəngin mədəniyyətə malik diyarımızın yüksək qonaqpərvərlik ənənələri, füsunkar təbiəti, özünəməxsus mətbəxi, ən ucqar dağ kəndlərində belə, müasir infrastrukturun yaradılması turizmin inkişafını sürətləndirib. Bu gün diyarımızın turizm potensialının təbliği istiqamətində ardıcıl işlər aparılır. Naxçıvanın tarixi, mədəniyyəti, turizm marşrutları, mətbəxi, adət-ənənələri ilə bağlı reklam-informasiya materialları hazırlanır, reklam çarxları və filmlər çəkilir. Turizmin təbliğində Naxçıvan şəhərində fəaliyyət göstərən “Gəmiqaya” Turizm Şirkətinin də rolu böyükdür.***

Şirkətin fəaliyyəti haqqda məlumat əldə etmək üçün həmin ünvanda olduq. Direktor Anar Məmmədov bildirdi ki, “Gəmiqaya” Turizm Şirkəti 2009-cu ildə fəaliyyətə başlayıb. Şirkət son illərdə doğma diyarımızda turizm sahəsinin inkişafına öz töhfəsini verib. Burada muxtar respublika sakinlərinə dünyanın bir çox ölkələrinə turlar təklif edilir, turistlərin isə buraya gəlməsi üçün tədbirlər görülür. Bu məqsədlə dünyanın bir çox turizm şirkətləri ilə əlaqələr qurulur, müqavilələr bağlanılır. Xaricdən gələn turistlərə diyarımız haqda geniş məlumat verilməsi üçün xarici dil bilən şəxslər cəlb olunur, tariximizi, mədəniyyətimizi əks etdirən kitablardan istifadə edilir. Bunun nəticəsidir ki, “Gəmiqaya” Turizm Şirkəti vasitəsilə cari ildə muxtar respublikaya yüzlərlə turistin gəlməsinə şərait yaradılıb, onların maraqlı vaxt keçirməsi üçün maksimum imkanlar səfərbər edilib.

Turizmin daha gəlirli sahəyə çevrilməsi üçün şirkət kütləvi informasiya vasitələrinin reklam çarxlarından, xüsusilə internetin imkanlarından geniş faydalanmağa çalışır. Şirkətin *www.gemiqayatravel.az* saytı fəaliyyət göstərir. Hər kəs bu ünvana daxil olaraq təklif olunan turlar haqda məlumat əldə edə bilir.

Anar Məmmədov onu da bildirdi ki, Naxçıvanda turizmin inkişafı sahəsində qarşıya qoyulan əsas məqsədlər kifayət qədərdir: turizm ehtiyatlarının öyrənilməsi, genişləndirilməsi, turistlərin tələbatının ödənilməsi üçün zəruri xidmətlərin təşkili və müasir standartlara uyğunlaşdırılması, sanatoriya-kurort imkanlarının genişləndirilməsi, mehmanxanaların və digər turizm obyektlərinin sayının artırılması, turizm marşrutlarının çoxaldılması və sair. Bir sözlə, söhbət turizmin iqtisadiyyatın ən dayanıqlı, effektiv və rəqabətədavamlı sahəsinə çevrilməsindən gedir. Naxçıvanın təmiz, eyni zamanda təhlükəsiz region olması turistləri buraya cəlb edən əsas amillərdir. Naxçıvanda turizmin bütün sahələrinin – ekoloji, kənd, müalicə, dini-ziyarət və mədəni turizmin inkişafı üçün geniş imkanlar var. Doğma diyarımızın müalicəvi iqlimi, şəfalı mineral suları, zəngin təbiəti turistlərin diqqətini çəkir. Zəngəzur Milli Parkı, Şahbuz-Batabat, Ordubad bölgəsi, Duzdağ və Darıdağ kimi müalicə ocaqları, Əshabi-Kəhf, Gəmiqaya kimi tarixi yerlər və digər abidələr, adət-ənənələr, folklor nümunələri, qədim və müasir şəhərsalma ənənələri muxtar respublikamızın böyük turizm potensialının olduğunu göstərir. Turistlər muxtar respublika ilə tanışlıq zamanı ilk olaraq “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksini, Nuh Peyğəmbərin məzarüstü türbəsini və “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksini görməyə can atırlar.

Şirkətin prinsip və məqsədləri haqqında da danışan müsahibimiz dedi ki, əsas missiyamız müştərilərimizə yüksək xidmət göstərməkdir. Şirkətin son illərdə qarşıya qoyduğu məqsədlərdən biri davamlı inkişaf edərək Azərbaycanın ən yaxşı səyahət şirkətlərindən biri statusunu qazanmaqdır. Şirkətin əsas prinsipləri düzgünlük və ədalət, sıx əməkdaşlıq və hər bir işdə peşəkarlıqdır. Ona görə də gündən-günə daha yaxşı xidmət göstərməyə çalışırıq. Şirkətin inkişafı və böyüməsinə nail olmaq ən böyük hədəfimizdir.

Turizm müasir iqtisadiyyatın insanların tələbatlarının yerinə yetirilməsinə və əhalinin yaşayış keyfiyyətinin yüksəldilməsinə yönəldilən mühüm fəaliyyət sahələrindən biridir. Ona görə də Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında turizm inkişaf etməkdə davam edir. Bu gün muxtar respublikamızda turizm sahəsinin inkişafına xüsusi önəm verilir. Geniş turizm potensialının mövcudluğu və bu sahəyə dövlət tərəfindən göstərilən qayğı gələcəkdə Naxçıvanı turizm məkanına çevirəcəyinə əminlik yaradır.

**Nail ƏSGƏROV**



*Düşünün, ən son nə zaman bir kitab və yaxud bir jurnal oxumusunuz? Ümumiyyətlə, gündəlik oxuma vərdişiniz sizi qane edirmi, yoxsa mütaliəniz yalnız "instagram", "facebook" və digər sosial şəbəkələrdə paylaşılan kiçik mülahizələrdən ibarətdir? Bəs kitab oxumağın faydalarını bilsəydiniz necə? O zaman da belə əhəmiyyətsiz yanaşardınızmı mütaliəyə?*

# Kitab oxumadığımız günü ömrümüzdən saymayaq

Kiçik yaşlarımdan kitablar ən sevimli dostlarım olub. Mənə düzgün yol göstərən, hər şeyin daha çoxunu istəmək fikrindən daşındıran, pis vərdişlərdən uzaqlaşdıran, məntiqli fikirlərilə yoluma işıq salan, bir sözlə, hər cümləsində mənəvi rahatlıq tapdığım, ibrət aldığım sadiq dostlarım... Bəlkə də, ondandır gənclərin kitab oxumasına, ya da oxumamasına belə həssas yanaşmağım... Bəzən avtobusda olarkən və ya bir parkdan keçərkən oturacaqda birinin kitab oxumasını gördükdə ürəyim dağa dönür. Fikrimcə, insan yalnız kitablarla həyata vəsiqə qazana bilər, kədərləndikdə kitablarda təsəlli tapıb, xoşbəxtliyini kitablarla paylaşa bilər. Təbii ki, bu, mənim düşüncəmdir... Bəs gənclər üçün kitab anlayışı nədir? Mütaliə etməyin onlar üçün əhəmiyyəti nədən ibarətdir? Ümumiyyətlə, bu gün gənc nəslin kitablara olan marağı hansı səviyyədədir? Bu suallarla üz tutduq şəhərimizdə yerləşən Kitab evinə...

Həmsöhbətimiz Məhəmmədağa Şahtaxtlı adına Kitab evinin direktoru Hidayət Cəfərov bizə kitabların həyatımızdakı əhəmiyyətindən, gənclərin kitablara münasibətindən danışdı: "Bu, bir faktdır ki, insan oxuduğu kitablarla kamilləşir, formalaşır, cəmiyyətdə özünə yer tapa bilir. Bu gün kitab, xüsusilə də bədii ədəbiyyatlar almaq üçün bizə müraciət edən gənclər var, lakin sözün düzünü desək, say etibarilə bu göstərici məni qane etmir. Bu isə böyük ehtimalla, insanların son vaxtlar internetə daha çox üstünlük verməsi ilə əlaqədardır. Düzdür, elektron kitablar istər vaxta qənaət, istərsə də rahatlıq baxımından əlverişlidir. Ancaq kitabı səhifələməklə, səhifələrin kənarlarında özünəməxsus qeydlər edərək oxumağın zövqünü heç bir elektron kitab əvəz edə bilməz".

Hidayət müəllim deyir ki, Kitab evinə xarici qonaqlar da müraciət edir. Onlar, əsasən, Naxçıvanın tarixi, mədəniyyəti, görkəmli şəxsiyyətləri, milli mətbəxi ilə bağlı kitablara üstünlük verirlər. O deyir ki, burada bütün janrlarda kitab tapmaq mümkündür. Həmçinin bukinist bölməsi də fəaliyyət göstərir ki, bu bölmədən istifadə edənlərin də sayı az deyil. Əhali tərəfindən satılmaq üçün verilmiş ensiklopediyalar, müəyyən elm sahələri ilə bağlı kitablar burada qəbul edilir.

"Alıcılar daha çox hansı müəlliflərin kitablarına üstünlük verirlər?" sualına müsahibimiz belə cavab verdi ki, hazırda onlar, əsasən, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Oxunması zəruri olan kitablar haqqında" 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş siyahıya daxil olan kitablarla maraqlanırlar. Ümumiyyətlə, daha çox bizə olunan müraciətlərə əsasən deyə bilərəm ki, adıçəkilən sərəncam mütaliəyə böyük maraq yaradıb. Biz də çalışırıq ki, həmin siyahıda olan nəşrlərin satışını təşkil etməklə bu tələbata cavab verək. Bəzən bu kitablar olmadıqda onları sifarişlə əldə etməyə çalışırıq. Kitab evində çalışanlar oxucularını maarifləndirmək üçün əlindən gələni əsirgəmirlər. Hətta kitab almaq üçün imkanı olmayan gəncləri də nəzərə alaraq kitabları qaytarmaq şərtilə onlara veririk. Məqsədimiz insanların asudə vaxtlarını kitab oxumağa sərf etmələrinə şərait yaratmaqdan ibarətdir.

Kitab ticarəti sahəsində zəngin təcrübəsi olan biri kimi Hidayət müəllimdən hansı kitabları oxumağı məsləhət gördüyünü bilmək istədik: "Hərənin bir janra marağı olur. Hər kəsin bir sevimli yazıçısı və ən çox sevdiyi bir kitabı olur. Elə yazarlar var ki, orta yaşlı nəsil tərəfindən bəyənilmədiyi halda, həmin yazarların kitablarına gənc nəsil tərəfindən müəyyən tələbat var. Mütaliə üçün kitab seçərkən çalışmalıyıq ki, bizim üçün tərbiyəvi əhəmiyyət daşımaqla yanaşı, insana vətənpərvərlik aşılayan, millətinə sevgi, hörmət, qayğı, fədakarlıq hissləri aşılayan kitablar oxuyaq. Məsələn, təkcə Azərbaycan xalqının deyil, bütün Türk dünyasının möhtəşəm və əzəmətli tarixini yaşadan, onu bu günümüzə qovuşduran ulu sənət nümunələrindən biri "Kitabi-Dədə Qorqud" dastanı kimi... Bədii söz xəzinəsi, türk xalqlarının tarixi salnaməsi, həyat ensiklopediyası olan bu dastanı oxumaqla insan özünü hər cəhətdən formalaşdıra, təkmilləşdirə bilər. Başqa birini misal çəksək, Cek Londonun "Həyat eşqi" hekayəsi. Bu kitabı illər əvvəl oxusam da, hər xatırladıqda təsirindən çıxa bilmirəm.

Kitab əsl təsəlli və özünütərbiyə mənbəyidir. Adını sadalayacağımız onlarla belə kitab var. Hər biri insan üçün ibrətamiz, təsəlli mənbəyi, bilik qaynağı, fikrimizdə yeni ideya və təfəkkür yaradan, formalaşdıran, gələcəyimizə işıq saçan neçə-neçə kitablar...

Buradan ayrılarkən türk klassiklərindən Əhməd Batmanın "Soyuq qəhvə" adlı kitabını vərəqləyən Könül Səfərbəyli ilə həmsöhbət oluruq. Sözün düzü, bunun şahidi olmaq məni sevindirdi, elə bu gəncin mütaliə ilə bağlı fikirləri də. Könülün dediyinə görə, o, mütaliə etməyi çox sevir. Gündə ən azı bir saatını mütaliəyə sərf edir. Onun üçün kitab həm müqayisəolunmaz mənbə, həm dost qazanma, həm də özünü yeniləmə vasitəsidir. Müsahibimizin fikrincə, kitablar təkcə insanların deyil, xalqların da həyatını dəyişir: "Araşdırmalar göstərir ki, kitab oxunan ölkələr oxunmayanlara nəzərən daha çox inkişaf edir. Bu inkişaf rifah səviyyəsində də özünü göstərir".

O deyir ki, bəzən kitabı mağazadan alır, hansısa tanışından əldə edir, ya da elektron variantını tapıb oxuyur. Müsahibimiz elektron resursların geniş yayılmasına baxmayaraq, kitabın həmişə klassik anlamda öz yerini qoruduğunu və gələcəkdə də qoruyacağını bildirir. O deyir ki, kitab oxumaq ən sevimli və faydalı məşğuliyyətdir. Üstəlik, elektron resurslardan fərqli olaraq gözləri yormur, əksinə, onların yaxşı görməsini təmin edir.

Müsahibimiz təəssüflə onu da bildirir ki, bəzən kitabı oxuyub, orada yazılanlardan düzgün nəticə çıxarmağı bəziləri bacarmır. Müəyyən hallarda müəllifin oxucuya çatdırmaq istədiyi fikir və ideyalar oxucular tərəfindən düzgün anlaşılmır. Ona görə də düşünürəm ki, kitab oxumaq qədər onu analiz etməyi bacarmaq da lazımdır.

Keçmiş və gələcək demişkən, gəlin ingilis yazıçısı Frensis Bekonun fikirlərinə nəzər salaq: "Kitablar zamanın dalğaları ilə səyahət edən və nəsildən-nəslə öz qiymətli yükünü ehtiyatla aparan fikir gəmiləridir". Unutmayaq ki, milli ruhu, mənəvi dəyərləri, tarixi, mədəniyyəti, dövlətçiliyi qorumaq, onları yaşatmaq və gələcək nəslə çatdırmaqda kitabların rolu danılmazdır. Kitablar xalqın ulu keçmişini özündə yaşadan və gələcək nəslə çatdıran bir vasitədir.

Dahi filosof Sokratın mütaliə haqqında fikirləri də maraqlıdır. Onun fikrincə, mütaliə cəmiyyətin gündəlik vərdişinə çevrilərsə, həmin cəmiyyət xoşbəxt olar. Bu fikri əlinə hər yeni kitab aldıqda onu acgözlüklə vərəqləyən və oxuduqlarının içində öz xəyali səadətini tapan hər kəs təsdiqləyə bilər. Bədii əsər oxuyanda üzündəki ifadələr qəhrəmanın ruh halına görə dəyişirsə, deməli, sən artıq ətrafındakı süni münasibətlərdən, beyninin əsas hissəsini zəbt edən qayğılardan azad halda əsərinin qəhrəmanı ilə ruh söhbətindəsən. Kitab oxuyarkən ən böyük zövq də elə budur.

Kitab nəinki bizə mənəvi rahatlıq verir, ruhu dinləndirir, eyni zamanda zehni təzələyir, danışıq qabiliyyətini qüvvətləndirir, xəyal gücünü inkişaf etdirir, dünyaya baxışı dəyişir. Bizi həssas bir insana çevirərək cəmiyyətdə müsbət keyfiyyətlərlə fərqlənməyimizə, iş həyatında müvəffəqiyyət qazanmağımıza böyük təsir göstərir. Sizcə, bu kimi müsbət keyfiyyətlərə nail olmaq üçün bu andan etibarən kitab oxumağın vaxtı deyilmi?

✍ **Gülcamal TAHİROVA**

## İncəsənət fakültəsi musiqi mədəniyyətimizə layiqli töhfələr verir



Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin gənclərin mənəvi tərbiyəsində, istedadlı musiqiçilərin yetişdirilməsində mühüm rolu var. Milli, eləcə də dünya klassik musiqilərini tələbələrə yüksək səviyyədə tədris edən, onun sirlərini gələcək nəsillərə çatdıran İncəsənət fakültəsi ötən illər ərzində uğurlu bir yol keçib.

18 sentyabr – Milli Musiqi Gününə həsr olunmuş tədbir fakültənin sənət hesabatı, yeni tədris ilinə uğurlu bir başlanğıc kimi bu fikirləri bir daha təsdiqlədi.

Tədbirdə fakültənin dekanı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Günay Məmmədova Milli Musiqi Gününün tarixi, dahi bəstəkar Üzeyir Hacıbəyovun həyat və yaradıcılığı, onun Azərbaycan musiqisinə verdiyi töhfələr haqqında danışdı.

Vokal ifaçılığı tarixi və nəzəriyyəsi ixtisası üzrə I kurs magistri Rahim Əsgərzadənin, solooxuma ixtisası üzrə II kurs tələbəsi Rüstəm İbrahimovun, həmin ixtisas üzrə III kurs tələbəsi İlkin Abdullayevin, kafedranın müəllimi, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Tural Bağırovun və digərlərinin ifalarında Üzeyir Hacıbəyovun "Cəngi", "Sənsiz", "O olmasın, bu olsun" musiqili komediyasından Məşədi İbadın mahnısı, Qara Qarayevin "Pyes", Emin Sabitoğlunun "Sən olmuşam" əsərləri və "Ruhani" aşıq havası səsləndi.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tədbirə yekun vuraraq qeyd etdi ki, Naxçıvan Muxtar Respublikasında musiqinin, xüsusilə də milli musiqinin, muğamın inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. İncəsənət fakültəsinin keçdiyi inkişaf yolundan, burada çalışan pedaqoqların sənət uğurlarından bəhs edən rektor ali təhsilli musiqiçilərin yetişdirildiyi Naxçıvan Dövlət Universitetinin bundan sonra da muxtar respublikamızda milli musiqi mədəniyyətinin inkişafına töhfə verəcəyini bildirdi.

**Xəbərlər şöbəsi**

## İdmançılar muzeyi ziyarət ediblər



Ordubad Rayon Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Uşaq-gənclər idman məktəbinin bir qrup idmançısının "Tariximizi tanıyaq və tanıdaq" devizi altında akademik Yusif Məmmədəliyevin ev-muzeyinə ekskursiyası təşkil edilib.

Ekskursiyada 20 nəfərə yaxın idmançı iştirak edib. Bələdçi Nazilə Bağırova muzeyin tarixi barədə iştirakçıları məlumatlandıraraq bildirib ki, ümummilli lider Heydər Əliyevin qayğısı nəticəsində görkəmli alimin adını əbədiləşdirmək üçün 1975-ci ildə akademikin ev-muzeyinin əsası qoyulub, 1976-cı il 6 fevral tarixdə açılış mərasimi olub. 2005-ci ildə isə muzeydə yenidənqurma işləri aparılıb.

Mədəniyyət müəssisəsi fəaliyyətə 407 eksponatla başlayıb, hazırda isə burada iki min eksponat mövcuddur. Bələdçi akademikin həyat və yaradıcılığını əks etdirən fotoşəkillər və muzeydəki digər eksponatlar haqqında iştirakçılara geniş məlumat verib.

## Boks birinciliyi başa çatıb

Ordubad Rayon Gənclər və İdman İdarəsi ilə Naxçıvan Muxtar Respublikası Boks Federasiyası Ordubad rayon bölməsinin birgə təşkilatçılığı ilə "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında boks üzrə rayon birinciliyi keçirilib. Birincilik 5 çəki dərəcəsində boksun ümumi qaydaları çərçivəsində təşkil edilib.

Yarışdan öncə rayon Gənclər və İdman İdarəsinin rəisi Əbülfəz Əliyev çıxış edərək gəncləri zərərli vərdişlərdən çəkindirməyin zəruriliyindən, idmana olan dövlət qayğısından, rayonda idmanın bu növünün kütləviliyinə nail olunmasından söz açıb, idmançılara uğurlar arzulayaraq yarışı açıq elan edib.

Maraqlı və gərgin keçən mübarizənin yekun nəticələrinə əsasən Əlihüseyn Həbibli, Aqil Maqsudov, Möhsün Həsənzadə, Elgün Rzalı və Ümid Sadiqov müvafiq olaraq 33, 38, 46, 51 və 56 kiloqram çəki dərəcələrində qalib adını qazanıblar.

Sonda qaliblər təşkilatçılar tərəfindən diplom və medallarla təltif ediliblər.

## Basketbol üzrə yoldaşlıq görüşü keçirilib



Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında basketbol üzrə yoldaşlıq görüşü keçirilib. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi görüşdə "Naxçıvan" və "Lokomotiv" komandaları üz-üzə gəlib.

Gərgin mübarizə şəraitində keçən görüş 53:49 hesabı ilə "Naxçıvan" komandasının xeyrinə başa çatıb.

✍ **Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Qəribova İntizar Adıxan qızının adına verilmiş ümumvətəndaşlıq pasportu itdiyindən etibarsız sayılır.

***

Allahverdiyev Məmməd Allahverən oğlunun adına Şahbuz şəhəri, "28 May" küçəsi, bina 21/2-də yerləşən evin 125 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 745